# ALİMİN YENİ ƏSƏRİ




Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutunun "Mifologiya" şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Şakir Əlif oğlu Albalıyevin "Mahirə Nağıqızının bədii yaradıcılığı" mövzusunda monoqrafiyası nəşr edilmişdir (Bakı: ADPU nəşr., 2025, 288 s.). Monoqrafiyanın elmi redaktoru akademik Nizami Cəfərov, rəyçiləri akademik Muxtar İmanov və filologiya elmləri doktoru, professor Seyfəddin Rzasoydur.

Azərbaycanın görkəmli filoloq alimi, filologiya elmləri doktoru, professor, Prezident təqaüdçüsü, tanınmış şairə Mahirə Nağı qızı Hüseynovanın (Mahirə Nağıqızı) bədii yaradıcılığının əhatəli təhlil edildiyi kitab üç fəsildən ibarətdir.

M.Nağıqızının zəngin və məzmunlu yara-dıcılığının müxtəlif mövzuları, o cümlədən Vətən müqəddəsliyi, vətənpərvərlik hissləri, ana təbiətin gözəlliyi, dünya, həyat haqqındakı düşüncələrinin şərh edildiyi monoqrafiya geniş oxucu kütləsi üçün nəzərdə tutulub.



***Ceyhun ZALLI***